**Mikayıl Abdullayev – 100**

***Bu il sentyabrın 10-da Prezident İlham Əliyev Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda deyilir: “Mikayıl Abdullayev parlaq ənənələrə malik Azərbaycan rəssamlıq məktəbinin böyük simalarındandır. Onun təsviri sənətin ən müxtəlif sahələrini əhatə edən koloritli yaradıcılığı xalqımızın mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur”.***



# Rəssamlıq sənətimizin korifeyi

Mikayıl Abdullayevin sənəti, həqiqətən, böyük məktəb idi. Bu məktəbin yetirmələri olan onlarca sənətkar bu gün milli rəssamlıq sənətimizin inkişafına xidmət etməkdədir. Mən rəssamam, yaxşı bilirəm ki, rəssamlıq mürəkkəb sənətdir. Bu gün dünyanın məşhur rəssamlarının yüz illər əvvəl çəkdikləri əsərlərə tamaşa edərkən bu sənətin aliliyinə bir daha inanırsan. Azərbaycanda rəssamlığın dəqiq yaranma tarixini demək çətin olsa da, xalqımız bu sənəti yaradanları böyük hörmət və məhəbbətlə yad edir. Onların adlarını sadalamaq fikrimizcə, o qədər də vacib deyil. Amma müasirimiz olan, ancaq bu gün aramızda olmayan rəssamlarımızı xatırlamaq, onların yaradıcılığı ilə gənc nəsli tanış etmək çox vacibdir. Bəhruz Kəngərli, Əzim Əzimzadə, Qəzənfər Xalıqov, Səttar Bəhlulzadə, Vəcihə Səmədova, Maral Rəhmanzadə və digər rəssamlarımızın yaradıcılıq yolu əsl məktəbdir. Elə haqqında söhbət açdığımız Mikayıl Abdullayevin də.

Dekabrın 19-da bu böyük



sənətkarın100 illik yubileyi qeyd olunacaq. Əsərlərinin sərgisi təşkil ediləcək, haqqında xatirələr söylənəcək, yəqin ki, kataloq, buklet və plakatlar çap olunacaq.

Mikayıl Abdullayev şərəfli ömür yolu keçib. 1921-ci il dekabrın 19-da Bakıda dünyaya göz açıb. 1939-cu ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini, 1949-cu ildə isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunu bitirib. İlk sərgisi Moskvada keçirilib.

Yaradıcılığının bütün mərhələlərində o, bu torpağın gözəl təbiətini, qəhrəman, yaradıcı insanlarını öz sehrli fırçasının dili ilə çox dəyərli əsərlərə çevirib, xalqına miras qoyub.

Rəssamlarımız arasında Mikayıl Abdullayev kimi elə bir fırça ustası tapılmaz ki, öz yaradıcılığı ilə klassik və müasir Azərbaycan ədəbiyyatına onun qədər möhkəm bağlı olsun. Dədə Qorquddan, dahi Nizamidən və Füzulidən başlamış müasir şair və nasirlərimizə qədər o, bir çox sənətkarların ya portretlərini yaratmış, ya da onların əsərlərinə illüstrasiyalar çəkmişdir.

Təsviri sənətimizin inkişafında mühüm xidmətləri olan bu görkəmli sənətkarın boyakarlıq və qrafika janrında yaratdığı əsərlər incəsənətimizin çox qiymətli səhifələrini təşkil edir. O, rənglərin dilini bilirdi. Molbert arxasında sanki bu rənglərlə danışırdı. Xalq şairi Rəsul Rza ona həsr etdiyi şeirində yazır:

*Sənin dilin olmasa da, çəkərsən*
*Sözün olmasa da...*
*Ancaq hər ikimiz*
*ürəksiz yarada bilmərik,*
*Mənimki sözdü, səninki rəng,*
*Var olsun ürək.*

Doğrudan da, Mikayıl müəllim böyük ürək sahibi idi. O, yaratdığı əsərlərə təkcə rənglərin qüdrətini deyil, həm də öz ürəyinin hərarətini gətirirdi. Ona görə də bu əsərlərdə təbiət daha canlı, insanlar həyatsevər təsvir olunur.

Mikayıl Abdullayevin yaradıcılığında qəribə bir müdriklik var. Bu əsərlər, sanki, insanları sabaha ümidlə baxmağa, qətiyyətli və məğrur olmağa səsləyir. Bu böyük sənətkarın yaradıcılığı o qədər zəngin və rəngarəngdir ki, bir məqalədə əhatə etmək qeyri-mümkündür. Burada biz onun yaradıcılığının bəzi məqamları barədə məlumat verəcəyik.

Ötən əsrin 40-cı illəri M. Abdullayev yaradıcılığının ilkin dövrüdür. Bu dövrdə yaratdığı tablolardan ikisinin adını çəkmək istərdim. Onlardan biri 1944-cü ildə çəkilmiş "Axşam", ikincisi isə 1947-ci ildə yaradılmış "Mingəçevir işıqları" tablolarıdır. Hər iki əsər professional səviyyədə yaradılmış sənət nümunələridir. Onlar bu gün də əvvəlkitək qiymətlidir və təsviri sənətimizin tarixində əhəmiyyətli əsərlər kimi dəyərləndirilir.

Mikayıl Abdullayev kəndin zəhmətkeş adamlarının həyatını və məişətini böyük ustalıqla öz əsərlərinə gətirirdi. Elə "Masallı silsiləsi"ndən olan "Körpəsinin ardınca", "Manqabaşı Rəxşəndə" tabloları bu mövzuda qiymətli əsərlərdəndir.

Onun yaradıcılığında nikbin bir ruh yaşayır. O, yaratdığı əsərlərdə həmişə bu nikbinliyi qorumağa çalışır. "Tarlada", "Lənkəranlı kolxozçu qadın", "Abşeronda", "Astarada çay yığımı", "Çəltikçi qızlar" və s. əsərlərinə tamaşa edənlər bunu aydın hiss edirlər.



M.Abdullayev tematik tablolar ustası idi. Onun yaratdığı portretlər qalereyasında məşhur sənət adamlarının çox qiymətli portretləri var. "Üzeyir Hacıbəyov", "Səməd Vurğun", "M. F. Axundov", "M. Qorki 1928-ci ildə Bakıda", "M. P. Vaqif", "İmadəddin Nəsimi", "Pianoçu F. Bədəlbəyli" və s. əsərlər rəssamın böyük portret ustası olduğunu bir daha təsdiq edir. Eyni zamanda, unudulmaz rəssam baxımlı qrafika əsərlərinin – illüstrasiya və kitab tərtibatı nümunələrinin müəllifi kimi də tanınırdı.

Onun "Kitabi–Dədə Qorqud" dastanına, Füzulinin "Leyli və Məcnun" poemasına, Bəxtiyar Vahabzadənin "Şəbi-hicran" əsərinə, Süleyman Rəhimovun və bir çox başqa qələm sahiblərinin yaradıcılıqlarına çəkdiyi təsvir nümunələri tamaşaçılar tərəfindən maraqla qarşılanmışdı. Rəssamın kətan üzərində yaratdığı obrazlar– "Yüz yaşlı usta", "Şair Süleyman Rüstəm", "Ornament ustası Lətif Kərimov", "Yazıçı Həsən Seyidbəyli" bu gün də tamaşaçıların zövqünü oxşayır.

Ustad sənətkarı həmkarlarından fərqləndirən bir cəhəti heç unutmaq olmur. Onun zəngin biliyi, bənzərsiz müşahidələri vardı. Mərhum kinorejissor Həsən Seyidbəyli deyirdi ki, "Nəsimi" bədii filmində Nəsimi rolunu oynayacaq aktyoru seçməyimdə Mikayıl Abdullayevin eyniadlı məşhur tablosu köməyimə çatdı. Yeri gəlmişkən, fırça ustasının fantaziya və təfəkkürünün vəhdətindən yaranmış həmin portret milli təsviri sənətimizin qızıl fonduna daxil olmuş boyakarlıq nümunələrindən biridir.



Azərbaycanın iftixarı Üzeyir bəy Hacıbəylinin naturadan portretini çəkməsindən rəssam qürur hissi ilə danışardı: "1943-cü ildə dünya şöhrətli bəstəkarın yağlı boya ilə obrazını yaratmışdım. Əsər Üzeyir bəyin çox xoşuna gəlmişdi. Onu muzeyə verməyib, evində saxladı. Məni görüşünə çağırıb portretin zəhmət haqqını ödəmək istədi. Götürmədim. Çünki Moskvada Ali Rəssamlıq Məktəbində təhsil alanda bir çox tələbələr kimi, mənə də qayğı, yardım göstərmişdi".

Rəssamın teatr sənətimizin inkişafında da xidməti çox olmuşdur. O, "Leyli və Məcnun", "Koroğlu" operalarına, Niyazinin "Çitra" baletinə bədii tərtibat vermişdi. Görkəmli bəstəkar Fikrət Əmirov onu "Bəstəkar ürəkli rəssam" adlandırmışdı.

Sənətşünaslardan biri yazırdı ki, M.Abdullayevin sənəti bəşəriyyətin qurub-yaratmağa mənəvi əzmini ifadə etdiyi üçün, məhz bu baxımdan hər hansı əsl sənət əsəri kimi elmi kəşflərlə bərabər tutula bilər.

M.Abdullayevin yaradıcılığında Bakı metrosunun “Nizami” stansiyasının interyerinin tərtibatı da xüsusi yer tutur. Oradakı təsvirlər



"Nəqqaş Mani"

mozaika sənətinin ən gözəl nümunələri kimi zövq oxşayır. Metronun bu stansiyasını yeraltı muzey də adlandırmaq olar.

1957-ci ildə fırça ustası Hindistana üçaylıq yaradıcılıq ezamiyyətinə getmişdi. Vətənə qayıdarkən təəssüratlarını, özü ilə gətirdiyi saysız-hesabsız etüdlər, eskizlər, portretlər, mənzərələr və ayrı-ayrı həyat səhnələrini çox qiymətli rəsm əsərlərinə çevirdi. M.Abdullayev bu silsilə üzərində on beş il məhsuldar işləmişdir. “Racastan qadınları”, “İşdən qayıdarkən”, “Benqal qızları” və başqa əsərləri bu silsilədəndir. Təsadüfi deyildir ki, o, Hindistanın Cavahirləl Nehru mükafatına layiq görülmüşdür.

M.Abdullayev 1956-cı ildə İtaliyada qısamüddətli yaradıcılıq səfərində olmuşdu. Bu səfər nəticəsində rəssam Avropa sənətinin ən dəyərli əsərləri ilə əyani şəkildə tanış olmuş və zəngin materiallar toplamışdır.

Rəssamın əsərləri dünyanın bir çox şəhərlərində təşkil olunan beynəlxalq sərgilərdə və festivallarda nümayiş olunub, dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. 1966-1967-ci illərdə Berlin və Leypsiqdə, eləcə də sonrakı illərdə başqa şəhərlərdə fərdi sərgiləri keçirilib. Onun əsərləri dünyanın müxtəlif muzey, qalereya və şəxsi kolleksiyalarında saxlanılır. Bənzərsiz yazı üslubu olan sənət ustasının öz yaradıcılığı və dünya sənətkarlığı barədə məqalələri müxtəlif qəzet və jurnallarda dərc edilib.

M.Abdullayevin yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilib. Ulu öndər Heydər Əliyevin M.Abdullayevi müstəqillik illərində “İstiqlal” ordeni ilə təltif etməsi buna bariz nümunədir. Rəssamın sənət irsi Prezident İlham Əliyevin də diqqətində olmuşdur.

Görkəmli rəssam 1955-ci ildə Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adını alıb. 1958-ci ildə SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü seçilib. O, 1960-cı ildə Azərbaycanın Xalq artisti, 1963-cü ildə SSRİ Xalq rəssamı fəxri adlarına, 1969-cu ildə beynəlxalq C.Nehru mükafatına, 1974-cü ildə isə Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb. Qeyd etmək lazımdır ki, Mikayıl Abdullayev SSRİ Xalq rəssamı fəxri adına layiq görülmüş ilk Azərbaycan rəssamı olub.

***Elçin ORUCOV,***
***Əməkdar mədəniyyət işçisi, rəssam***